# Şairlər məclisi




**“Şairlər məcəlləsi” məcmuəsi**

Şəhrivər hadisəsindən (25 avqust 1941-ci il tarixində Sovet qoşunlarının 26 fevral 1921-ci il Sovet-İran müqaviləsinin müvafiq maddəsinə uyğun olaraq qeyd-şərtsiz İranın şimal hissəsindən bu ölkəyə daxil olması ilə baş verən hadisələr nəzərdə tutulur – red.) sonra Azərbaycanda bir çox görkəmli şairlər meydana çıxdı. İrtica üsul-idarəsi heç bir sənəd, bilik və istedada qiymət vermədiyi kimi o dövrdə şair və yazıçılarımız da nəzərdə yox idilər. Lakin şəhrivər hadisəsinsədn sonra meydana çıxmış bir çox istedadlı şairlər və yazıçılar öz qələmləri ilə azadlıq hərəkatının təkmilinə kömək etməyə başladılar.

Görkəmli şairlərdən cənab Biriya, Mirmehdi Etimad, Əli Fitrət, Azəroğlu, Əli Tudə, Quluxan Borçalı, Mədinə xanım, Milani, kürd şairlərindən Hejar, erməni şairlərindən Qukasyan və sair bu kimi istedadlı şairlər nəinki Təbrizdə, hətta Azərbaycanın başqa nöqtələrində də vardır. Azərbaycanın bu şairləri öz qələmlərini şanlı firqəmizin qələbəsində qüşmənə qarşı süngü yerinə işlətmişlər. Bir millətin mədəniyyətinin səviyyəsi o ölkənin şairləri və yazıçılarının əsərləri ilə ölçülə bilər.

Milli hökumətimiz qurulandan sonra şair və yazıçıların sayı günü-gündən çoxalıb və öz qələmləri ilə xalqına xidmət edirlər. Keçən ildən təşkil olunmuş "Şairlər məclisi" indi "Şairlər və yazıçılar cəmiyyəti" adını almışdır. Şairlər məclisinin məhsulu olan "Şairlər məclisi" adlı kitabı hər oxucu vərəqləmiş olsa, əvvəlinci səhifəsində Azərbaycanın məşhur klassik şairi Fizulinin əksini görər. Bu böyük ustadın əksinin bu kitabda olması heç də təsadüfi deyil. Çünki şairlərimiz onun istedadından az istifadə etməmişlər.

Kitabın 18-ci səhifəsində şairlər məclisinin müəllimi və rəhbəri sevimli ustad Cəfər Xəndan "Stalin Cənubi Azərbaycan şeirində" başlıqlı görkəmli bir məqalə yazmışdır. Bu məqalədə bir çox şairlərdən misallar gətirilmişdir. Çünki Azərbaycanda yetişən şairlər və yeni həvəskarlar özlərinin şeirlərində azadlıq günəşi olan böyük Stalinə yer vermişlər. Firqə və hökumətimizin səyi nəticəsində Azərbaycanda günü-gündən qələm sahibləri çoxalır.

"Şairlər və yazıçılar cəmiyyəti" tərəfindən tərbiyə olunmuş şair və yazıçılarımız firqəmizin gündəlik siyasəti haqqında yaxşı əsərlər yazmaqla xalqımıza bədii ruh qidası verəcəklər. "Şairlər və yazıçılar cəmiyyəti" nəzdində hər bir cavan şair və yazıçı üçün öz məlumatını artırmaqdan ötrü geniş imkan mövcuddur. Ədiblər, pyes yazanlar, mətbuatçılar və tənqidçilər şöbəsi vardır. Cəmiyyət yaxın gələcəkdə "Şairlər məclisi" kimi böyük bir kitab nəşr etməyi arzu edir.

Qəhrəmanzadə.

"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 182, 25.04.1946

**Təqdim etdi: Səməd Bayramzadə**

